DOI: https://doi.org/10.36719/2706-6185/49/41-44

**Təhminə Nəbiyeva**
Gəncə Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0009-5789-4870
tahmina_nabiyeva@mail.ru

# Kiçikyaşlı məktəblilərin qənaətcillik tərbiyəsinin mahiyyəti, məzmunu, prinsip və metodları

## Xülasə

Tədqiqatın nəticəsində aydın oldu ki, kiçikyaşlı məktəblilərdə qənaətçilik iqtisadi tərbiyə – şagirdləri iqtisadiyyata aid bilik, bacarıq və vərdişlərlə silahlandırmaq, əməyə müsbət münasibət bəsləmək, şagirdlərə gündəlik davranışlarında qənaətcilliyi, işgüzarlığı, sahibkarlığı, zirəkliyi, iqtisadi dünyagörüş və baxışı aşılamaq, vətənin iqtisadiyyatına sadiq olmaq, mülkiyyətin qədrini bilmək kimi keyfiyyətləri mənimsətmək məqsədi ilə məktəbdə aparılan planlı, mütəşəkkil fəaliyyətdir. İqtisadi tərbiyə gəncliyə təşəbbüskar olmaq, yerinə yetirilən işə candərdi deyil, həvəslə, şüurla, könüllü olaraq yanaşmaq duyğuları aşılayır. Elmi-texniki, iqtisadi düşüncəni inkişaf etdirir. Qənaətcil olmağı, zirəkliyə sövq edir. Yarışa, rəqabətə, əmək bəhsləşməsinə yaxından qoşulmağı, özünü əsil mülkiyyətçi sanmağı və istehsalın sahibi olmaq hissini tərbiyə edir. Kiçikyaşlı məktəblilərin qənaətcillik tərbiyəsi şəxsiyyətin iqtisadi təfəkkürünün özül rolunu oynadığından onun bütün məktəblərdə sistemli və ardıcıl olaraq həyata keçirilməsinə nail olmaq vacibdir. Xüsusilə müvafiq sinifdənxaric və məktəbdənkənar tədbirlərin təsirli olmasına, bu tədbirlərin hazırlanması və keçirilməsində şagirdlərin özlərinin iştirakına geniş yer verilməlidir. Hər bir məktəbdə qənaət rejiminin tətbiqi, görülmüş işlərə qənaətlilik, sərfəlilik baxımından qiymət verilməsi həyata keçirilməlidir.

***Açar sözlər:*** *iqtisadi tərbiyə, uşaqların qənaətcillik tərbiyəsi, sosial-iqtisadi təsəvvür, iqtisadi bilik, milli tərbiyə ənənələri, işgüzarlıq, dəqiqlik*

**Tahmina Nabiyeva**
Ganja State University
PhD in Pedagogy
https://orcid.org/0009-0009-5789-4870
tahmina_nabiyeva@mail.ru

# The Essence, Content, Principles and Methods of Thrift Education of Young Schoolchildren

## Abstract

As a result of the study, it became clear that thrift in younger schoolchildren economic education is planned, organized activity carried out at school with the aim of arming students with knowledge, skills and habits related to economics, fostering a positive attitude towards labor, instilling thrift, businesslikeness, entrepreneurship, intelligence, economic outlook and vision in students' daily behavior, being loyal to the economy of the homeland and appreciating property. Economic education instills in youth the feelings of being proactive, approaching the work performed not with enthusiasm, but with awareness and voluntarily. It develops scientific-technical, economic thinking. It encourages thrift, intelligence. It educates the ability to closely participate in competition, labor negotiations, to consider oneself a real owner and to be the owner of production. Since the education of thrift in younger schoolchildren plays a fundamental role in the economic thinking of the individual, it is important to achieve its systematic and consistent implementation in all schools. In particular, in order for appropriate extracurricular and extracurricular activities to be

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

effective, the participation of students themselves in the preparation and implementation of these activities should be given wide space. In each school, the application of the thrift regime and the assessment of the work done in terms of thrift and profitability should be implemented.

***Keywords:*** *economic education, education of children's thriftiness, socio-economic imagination, economic knowledge, national educational traditions, diligence, accuracy*

## Giriş

Sosial-iqtisadi inkişafın bütün sahələrində yeni təfəkkür tərzinin formalaşması respublikamızın iqtisadiyyatını yeni tələblər səviyyəsinə qaldırmağı və birinci dərəcəli məhsuldar qüvvə olan insan amilinin fəallaşdırılması vəzifələrini irəli sürür. İndi öndə duran ən mühüm daxili və beynəlxalq vəzifələrdən biri geniş elmi dünyagörüşünə, dərin ixtisas biliyinə malik gənclər yetişdirməkdir. Bu məsələlərin müsbət həllinə nail olmaqda ilkin və aparıcı rol ümumtəhsil məktəbinə məxsusdur. Məktəb insana yalnız elmlərin əsaslarına dair biliklər verməklə kifayətlənməməlidir. Həm də onu məhsuldar əməyə və geniş profilli peşələrə hazırlamalıdır. Yeni insan tərbiyə edilməsinin forma və məzmunca zənginləşdirilməsi yaşadığımız mərhələnin, təlatümlü zamanın aktual tələbidir (Abbasov, Məmmədzadə, & Məmmədli, 2021). Həyat sübut edir ki, iqtisadi təhsilə mükəmməl yiyələnmədən insan hər hansı bir quruculuğun fəal və şüurlu iştirakçısı, nümunəvi aparıcısı ola bilməkdən uzaqdır. Onun zərbəsi ağır, nəticəsi mənfi olur.

İqtisadi tərbiyə xalqın milli psixologiyası, əhalinin məşğulluluğunun coğrafiyası və ona məxsus statistika, təsərrüfatın ixtisaslaşması, onun maddi-texniki təchizatı, sosial mühitlə bağlı olan əlaqələr, sərhədlərimizin qorunması, Vətənimizin müdafiəsi və s. problemlərin həllini özündə birləşdirməlidir. İqtisadi tərbiyə şagirdlərin peşə seçməyə hazırlanmasında özünü doğrultmuş formalardan biri kimi həyata keçirilməli, ictimai faydalı əməklə, x/t-nın hər hansı bir sahələrində məşğul olmaqla bütün üzvləri ilk növbədə hələ orta məktəbdən başlayaraq ictimai həyatda baş verən keyfiyyət dəyişiklikləri, iqtisadi hadisə və proseslərin həlli və s. vəzifələri ilə dərindən və hərtərəfli silahlandırmalıdır (Abbasov, 2015).

**Tədqiqat**

Şagirdlərin qənaətcillik iqtisadi tərbiyəsinin mahiyyətini onlarda maddi nemətlərə, sərvətlərə qayğılı münasibət, istifadə etdikləri şey, əşya və avadanlıqdan, zaman və məkan faydalılığından israfçılığa varmadan, gərginlik, ehtiyatlılıq mövqeyindən istifadəyə alışdırmaq təşkil edir. Eyni zamanda qənaətcillik orta həddi aşmamaq, məişətdə pəhrizkarlıq gözləmək, iqtisadi səmərəyə halallıq və zəhmətlə nail olmaq normalarına yiyələnmək mahiyyəti daşıyır, əxlaqi-mənəvi saflıq, zənginlik funksiyasını yerinə yetirir. Qənaətcillik, bacarıq və vərdişlərinə yiyələnmək və onun daşıyıcısına çevrilmək qənaətcillik tərbiyəsi prinsipinin nəticəsi kimi qiymətləndirilir. Şagirdlərdə qənaətcillik tərbiyəsinin məzmununu cəmiyyətin iqtisadi inkişaf qanunauyğunluğuna, qanunlarına, təsərrüfatçılıq prinsip və metodlarına yiyələnmək, həyati iqtisadi tələbata cavab verə bilmək, əməyin, istehsalın iqtisadiyyatı və təşkili elementləri ilə tanışlıq, iqtisadi şüura, qənaətcillik bacarıq və vərdişlərinə yiyələnmə təşkil edir. Qənaətcillik tərbiyəsi əlahiddə proses olmayıb, ümumiyyətlə tərbiyə prosesinə daxildir. Buna görə o da ümumi pedaqoji tərbiyə prinsiplərindən, iş forma və metodlarından istifadə edilərək həyata keçirilir (Ağayev, 2004).

Tədqiqatdan müəyyənləşdirmişik ki, uşaqlarla birdən-birə qənaətcillikdən danışmaq səmərə vermir. Əvvəlcə onlarda geniş sosial-iqtisadi təsəvvür yaradılmalı, özünü, ətrafını, münasibət obyektlərini, gündəlik yaşayış ehtiyaclarını onlara anlatmaq lazımdır (Axundov, 2003). Əqli-rasional və hissi-emosional təsir duyğusu oyadılmayınca uşaqlar deyilənlərə əhəmiyyət vermirlər, yaxud əzbərləyib mahiyyətinə varmırlar. Bilgi məlumatları ilə yanaşı əxlaqi keyfiyyətlərin, estetik duyumun, əmək bacarıqlarının, ləyaqəti qorumaq hissinin də inkişafa qənaətcillik keyfiyyətinin səmərəliliyini təmin edir. Qənaətcillik tərbiyəsi mənəvi və iqtisadi tərbiyənin tərkibində, başqa sözlə desək vəhdətdə aparılmalıdır ki, daxili tələbata və işə çevrilsin (Ailə tərbiyəsi: Valideynlər üçün lüğət, 2000).

Baxmayaraq ki, insanlar iqtisadi çətinliklər içərisində çabalayırlar, lakin hələ də ümumtəhsil məktəbi şagirdlərinin iqtisadi biliklərə yiyələnməsi üçün lazımınca tədbir həyata keçirilmir, şagirdlərin gündəlik həyatı və hərəkəti bu mühüm məsələ ilə əlaqələndirilmir. İqtisadi tərbiyə hər

şeydən əvvəl adamlarda bədxərcliyə yol verməməyi, qənaətcil olmağı, təsərrüfatı səmərəli, bacarıqla idarə etməyi öyrədir. Uşaqlara kiçik yaşlarından öyrədilməlidir ki, onlar lazım gəldikdə, müəyyən iş sahəsində az məsariflə daha çox qazana, yaxud digər nəticələr əldə edə bilsinlər. Tədqiqatdan onu da müəyyənləşdirmişik ki, məktəbdə yuxarı siniflərdə aparılan qənaətcillik tərbiyəsi aşılayan işlər, tədbirlər aşağı siniflərə də təsir edir. Əvvələn, bütöv kollektivdə iqtisadi şüur, iqtisadi davranış yüksəkdirsə, bu, biri-digərinə təsir etməklə daha da genişlənir. İkincisi, balacalar böyük uşaqların söhbətlərini, hərəkət və davranışlarını müşahidə edirlər və bu, onlara təsirsiz qalmır. Ona görə də məktəbdə (elə ailədə də) qənaətcillik tərbiyəsi üçün müvafiq mühit, şərait olmalıdır (Axundov & Həsənov, 2001). Şagirdlərin iqtisadiyyatı öyrənməsində və iqtisadi tərbiyəsində başlıca məsələlərdən biri də onların iqtisadi kateqoriya haqqında anlayışlara yiyələnmələridir. Yəni ictimai əmək bölgüsü, əmək, dəyər, pul, yığım, təsərrüfat hesabı və s. haqqında lazımi biliklərin onlara çatdırılmasıdır. Məsələn, təsərrüfat hesabı ilə işləmək prinsipi hər bir adamı iqtisadi cəhətdən tərbiyələndirir, ona hara nə qədər işlətmək, nə üçün vəsait qoymaq, maya dəyəri və gəliri irəlicədən düşünmək vərdişləri aşılayır. Məhz burada qənaətin və qənaətcilliyin öz xüsusi əhəmiyyəti vardır (Qənaət və qənaətcillik tərbiyəsi həyatın tələbidir, 2016). Göstərilən məsələlər şagirdlərdə iqtisadiyyatı öyrənməkdə o vaxt maraq oyadır ki, (motiv) ayrı-ayrı fənlərin tədrisində (məsələn, riyaziyyat, ədəbiyyat, tarix, biologiya, əmək təlimi, coğrafiya və s.) hər fənnin özünə uyğun həyati nümunələrlə, misallarla, deyimlərlə, məsələlərlə, iqtisadi faktlarla təhlil aparıla. Hər bir orta məktəbin pedaqoji kollektivi nəzərdə tutmalıdır ki, məktəblilərin bugünkü iqtisadi hazırlığı gələcəkdə təsərrüfata elmi rəhbərliyin yüksəldilməsinin vacib şərtidir və istehsalatın idarə edilməsində təşəbbüskarlığın və fəallığın artırılması məqsədini daşıyır. Beləliklə, iqtisadi yanaşma geniş pedaqoji kateqoriya kimi meydana çıxır və müxtəlif bilik sahəsini əhatə edir. Bu zəngin bilik və həyati iqtisadi təcrübə bazası olmadan qənaətcillik tərbiyəsini aşılamaq çətindir (Qaralov, 2005).

Qənaətcillik tərbiyəsinin aşılanmasının başlıca olaraq iki formasından istifadə edilir: 1. Təlim prosesində, 2. Sinifdənxaric və məktəbdənkənar tədbirlər zamanı. Bunlara yollar da demək olar. Çünki bu iki istiqamətin hər birində müxtəlif iş formalarından istifadə etmək mümkündür. Bu, əlbəttə uşaqların fəaliyyəti sahəsindən irəli gəlir. Məsələn, oyun fəaliyyəti zamanı müxtəlif cür oyunlardan, əmək fəaliyyəti zamanı müxtəlif əmək işlərindən və s. Lakin bütün hallarda məqsəd, mövqe vahid olmalıdır. Bu isə özünü prinsiplərdə əks etdirir (Baranova, 2019). Həmin prinsiplər bunlardır: Elmilik prinsipi; Müqayisədən istifadə edilməsi prinsipi; Sistemlilik və ardıcıllığın gözlənilməsi prinsipi; Uşağın yaşına, məlumatına və təcrübəsinə əsaslanma prinsipi; Ailə sosial-məişət səviyyəsi və ənənəsinin nəzərə alınması prinsipi; Fərdi xüsusiyyətlərin nəzərə alınması prinsipi; Tərbiyəvi təsirlər rejiminə riayət edilməsi prinsipi; Uşağın praktik işlərdə iştirakı prinsipinin yaradılması; İqtisadi tərbiyə mühitinin yaradılması prinsipi; İctimai şəraitin nəzərə alınması prinsipi (Xəlilov & Abbasov, 2005).

Qənaətcillik tərbiyəsi daha çox praktik işlərdə formalaşır. Şagirdlərin hərəkət və davranışında qənaətcilliyin gözlənilməsi onların təlim prosesində və sinifdənxaric tədbirlərdə qazandıqları bilik və bacarıqlardan çox asılıdır. Kiçik yaşlı məktəblilərdə suya, qaza, enerjiyə, çörəyə və digər şeylərə qənaətlə yanaşma vərdişi onları bunların əldə edilməsi, nə üçün gərəkli olması, dəyəri və s. haqqında iqtisadi əhəmiyyətli məlumatlarla, bilgilərlə əvvəlcədən silahlandırdıqda tez yaranır və möhkəm olur. Qənaətcillik tərbiyəsinin sistemini məktəbdə təlim prosesində və sinifdənxaric və məktəbdənkənar tədbirlərdə, ailədə aparılan tərbiyəvi təsirlər və bu prosesə pedaqoji rəhbərliyin ardıcıllığı təşkil edir (Amend, 2012).

Təlim prosesində qənaətcillik anlayışını daha qavranılan etmək üçün “xəsislik”, “simiclik”, “səxavətlilik”, “tamahkarlıq”, “acgözlük”, “əliaçıqlıq” kimi anlayışların məzmununu müqayisəli olaraq şərh etmək məqsədəmüvafiq fikri möhkəm qavramağa güclü təsir göstərir (Həşimov, 2001). Kiçik məktəbyaşlı uşaqların qənaətcillik tərbiyəsi ailədə və məktəbdə bunun üçün yaradılan şəraitdən — ailə və məktəb mikromühitindən də asılıdır.

## Nəticə

Tədqiqatdan alınan nəticələri ümumiləşdirərək deyə bilərik ki, cəmiyyətdəki müasir ictimai-iqtisadi yeniləşmə prosesi böyüyən nəslin iqtisadi, o cümlədən qənaətcillik tərbiyəsinə diqqəti köklü şəkildə artırmağı tələb edir. Bu sahədə səmərəli iş sistemi yaradılması, qənaətcillik tərbiyəsinin əxlaqi-mənəvi və iqtisadi yönümdən vəhdətdə aparılması problem baxımından məktəbəqədər və kiçik məktəbyaşlı uşaqların tərbiyəlilik səviyyəsinin yüksək olmasını təmin edir.

Qənaətcillik tərbiyəsinin kiçik məktəbyaşlı şagirdlərlə aparılması bu sahədə möhkəm təməl yaradılmasına, uşaqların gördükləri işlərin iqtisadi mahiyyətini anlayaraq hərəkət etmələrinə və bu bazada yetkinləşmənin məqsədəuyğun olaraq getməsinə şərait yaradır.

## Ədəbiyyat

1. Abbasov, A. N. (2015). *Milli əxlaq və ailə etikası: Ali təhsil müəssisələrinin magistratura səviyyəsi üçün dərslik*. Mütərcim.
2. Abbasov, A. N., Məmmədzadə, R. R., & Məmmədli, L. A. (2021). *Pedaqogika: Müntəxəbat: Dərs vəsaiti*. Mütərcim.
3. Ağayev, Ə. Ə. (2004). Azərbaycan pedaqoji fikrində şəxsiyyətin qənaətcillik tərbiyəsi. *İbtidai məktəb və məktəbəqədər tərbiyə*, (1).
4. Axundov, S. H. (2003). Şagirdlərin qənaətcillik tərbiyəsi. *Azərbaycan məktəbi*, (6), 46–49.
5. Axundov, S. H., & Həsənov, A. İ. (2001). *Ailədə uşaqların əxlaq tərbiyəsi*.
6. Ailə tərbiyəsi: Valideynlər üçün lüğət. (2000). Q. Adıgözəlov (Tərc.).
7. Amend, A. F. (2012). *Ekonomicheskiye vospitaniye mladshchikh shkol'nikov: Uchebnoye posobiye*. Chelyabinsk.
8. Baranova, L. I. (2019). *Vospitaniye berezhlivosti u mladshchikh shkol'nikov v uchebnoy i vneklassnoy rabote* (Avtoreferat, dissertatsiya nam. ped. nauk). Minsk.
9. Həşimov, Ə. (2001). İqtisadi tərbiyənin vəzifələri və həyata keçirilməsi yolları. *Azərbaycan məktəbi*, (4–5), 20–23.
10. Xəlilov, N., & Abbasov, B. (2005). Məktəblilərin qənaətcillik və qayğıkeşlik tərbiyəsi. *Azərbaycan məktəbi*, (1), 24–29.
11. Qaralov, Z. İ. (2005). Əmək tərbiyəsi və təliminin kökündən yaxşılaşdırılması, gənclərin ümumi peşə hazırlığına keçilməsi. *Azərbaycan məktəbi*, (1), 50–56.
12. Qənaət və qənaətcillik tərbiyəsi həyatın tələbidir. (2016). *Bilik*.

Daxil oldu: 16.03.2025
Qəbul edildi: 19.06.2025